İPƏK YOLU, No.1, 2023, səh.13-19

# MİLLİ ƏDƏBİYYATIMIZIN BÖYÜK HAMİSİ HEYDƏR ƏLİYEV

**Aynur Həsənova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: aynur.hasanova@au.edu.az

**Xülasə**. Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbiyyatına qayğısı araşdırılır. Ulu öndərin həm klassik, həm də çağdaş ədəbi irsə göstərdiyi qayğıkeş münasibətə dair nümunələr gətirilir.

**Açar sözlər**: Heydər Əliyev, milli ədəbiyyat, mədəniyyət siyasəti, teatr, muzey.

**HEYDAR ALIYEV AS A THE GREAT PROTECTRESS OF OUR NATIONAL LITERATURE**

**Aynur Hasanova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article examines the national leader Heydar Aliyev's concern for Azerbaijani literature. Examples of the great leader's caring attitude towards both classical and contemporary literary heritage are given.
**Keywords**: Heydar Aliyev, national literature, cultural policy, theater, museum.

**ГЕЙДАР АЛИЕВ КАК ВЕЛИКИЙ ПОКРОВИТЕЛЬ НАШЕЙ НАЦИОНАЛЬНОЙ ЛИТЕРАТУРЫ**

**Айнур Гасанова**
*Университет Азербайджан, Баку, Азербайжан*

**Резюме.** В статье исследуется забота общенационального лидера Гейдара Алиева об азербайджанской литературе. Приводятся примеры бережного отношения великого деятеля как к классическому, так и к современному литературному наследию.
**Ключевые слова:** Гейдар Алиев, национальная литература, культурная политика, театр, музей.

Ulu öndər Heydər Əliyev elə nadir tarixi şəxsiyyətlərdəndir ki, öz xalqının taleyində oynadığı rola görə milli lider statusuna layiq görülüb. O nəinki rəhbərlik etdiyi dövlətin iqtisadi gücünü artırıb, siyasi nüfuzunu yüksəldib, sərhədlərini və ordusunu möhkəmləndirib, beynəlxalq arenada onu layiqincə təmsil edib, eyni zamanda mənsub olduğu millətin mədəniyyətinin, həmçinin ədəbiyyatının inkişafına zəmin yaradıb, milli şeirin, nəsrin, dramaturgiyamızın təkmilləşməsinə güclü təkan verib.

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci, 1993-2003-cü illərdə də milli mədəniyyətimizdə, eyni zamanda ədəbiyyatımızda bir canlanma, bir ruhi yüksəliş müşahidə olunub ki, hər iki dönəmdə böyük nəsil yaradıcı insanlar yetişib, Azərbaycanın adını dünyaya tanıdıb. Bir qərinəlik dönəm ərzində Ulu öndər bəzən Azərbaycanın de-yure rəhbəri olmasa da, de-fakto bu şərəfli missiyanı sevə-sevə öz üzərinə götürüb, sevilə-sevilə yerinə yetirib. İstər keçmiş SSRİ rəhbərliyində təmsil olunduğu illərdə, istər siyasi rəhbərlikdən uzaqlaşdıqda, istərsə də Naxçıxanda Muxtar Respublikanın rəhbəri olduğu dönəmlərdə o tez-tez Azərbaycan mədəniyyət və ədəbiyyat xadimləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb, klassiklərin əsərlərinin səhnədə oynanılması, nəşri, dünya dillərinə tərcüməsi, xatirələrinin əbədiləşdirilməsi üçün təşəbbüs göstərib, qətiyyətli addımlar atıb. Çünki o, bütün halı ilə əsl

Azərbaycan vətəndaşının bir nümunəsi idi. O həm də bir ədəbiyyat həvəskarı, şeir, poeziya, nəsr, teatr, kino vurğunu idi.

Heydər Əliyev hələ uşaqlıq və ilk gənclik illərində ədəbiyyata böyük həvəs göstərib. Bu həvəsi onda formalaşdıran əsas amillərdən biri böyüyüb, boya-başa çatdığı Naxçıvan mühiti (*bu elə bir mühit idi ki, poeziyada dahi Hüseyn Cavidi, nəsrdə isə böyük Cəlil Məmmədquluzadəni yetişdirmişdi*), digəri isə XX əsrin əvvəllərinin milli ruhun hakim olduğu ab-hava idi (*bu elə bir dövr idi ki, Azərbaycan uzun illərdən sonra qanı bahasına əldə etdiyi müstəqilliyini itirmiş, bu itki ilə barışmadığı üçün repressiyalara məruz qalmışdı*).

Görkəmli ədəbiyyatşünas, AMEA-nın müxbir üzve Tehran Əlişanoğlunun aşağıdakı tezisi də fikirlərimizi təsdiqləyir: *"Heydər Əliyevin ədəbiyyata, ədəbi mühitə marağı son dərəcə böyük sənət və ədəbiyyat sevgisindən doğmuşdur"* [1, s. 4].

Ulu öndərin öz dediklərindən də öyrənirik ki, dahi Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin böyük qardaşı Şeyx Məhəmməd onun ilk ana dili müəllimi olmuşdur. Bu tələbkar və zəngin dünyagörüşünə malik müəllim gənc Heydərdə milli klassik ədəbi irsimizə böyük maraq oyada bilmişdi. Poeziyaya, dram sənətinə olan dərin marağı onu 1938-ci ildə Naxçıvan şəhər Pionerlər Evindəki dram dərnəyinə gətirmişdi. Dərnəyin rəhbəri olan Naxçıvan Dövlət Dram Teatrının aktyoru Miribrahim Həmzəyev (1908-1982) təkcə bu istedadlı gəncin natiqlik potensialını ortaya çıxarmamış, həm də onda dünya ədəbiyyatı ilə daha yaxından tanış olmasına həvəs yaratmışdı. Elə bu həvəsin nəticəsi idi ki, sonrakı təhsilini Naxçıvan Pedaqoji Məktəbində davam etdirən Heydər Əliyev dram dərnəyi ilə əlaqəsini üzməmişdi. O, dərnək üzvlərinin hazırladığı Mirzə Fətəli Axundzadənin "Vəziri-xani-Lənkəran", Məmməd Səid Ordubadinin "On min manatı kim uddu?" kimi maraqlı pyeslərdə aktyor qismində çıxış etmişdi, bununla da həm həmkarlarının, həm də tamaşaçıların rəğbətini qazanmışdı.

1939-cu ildə Azərbaycan Sənaye İnstitutuna qəbul olan gələcəyin memarında ədəbiyyata, dram sənətinə olan həvəs sönməmiş, əksinə daha da alovlanmışdı. O, özü kimi şeir-poeziya, sənət-mədəniyyət aşiqlərini ətrafına toplayıb tələbəsi olduğu ali məktəbin nəzdində dram dərnəyi yaratmışdı. Bu həm də Ulu öndərin təşkilatçılıq məharətinin daha da püxtələşməsinə səbəb olmuşdu.

Böyük Vətən müharibəsi illərində Naxçıvanda xüsusi xidmət orqanlarında xidmət edən Heydər Əliyev həmin şəhərdə 402-ci Azərbaycan Diviziyasının nəzdində yaradılmış hərbi orkestrın rəhbəri, gələcəyin böyük bəstəkatı Tofiq Quliyevlə (1917-2000) dostlaşmış, caz sənətinə belə bələd olmuşdu.

Bu illərdə söz adamları, rəssamlar, aktyorlar və digər incəsənət xadimləri ilə yaxından tanışlığı onun ədəbiyyat, incəsənət sahəsində daha dərin bilgilər əldə etməsinə səbəb olmuşdu. Daim mütaliə edən, öyrənməyi sevən bu istedadlı gənc incəsənət və ədəbiyyat haqqında söhbətləri həm yaşıdlarında, həm də müəllimlərində böyük ümidlər doğurmuşdu. Müəllimi, vaxtılə dərnək rəhbəri kimi Heydər Əliyevlə yaxın ünsiyyətdə olmuş peşəkar aktyor Miribrahim Həmzəyev onun nəinki bacarıqlı aktyor, hətta güclü teatr tənqidçisi ola biləcəyini vurğulamışdı.

Bu fikirlər əsassız deyildi. Belə ki, istər şair, yazıçı və dramaturqlar, istər aktyor və rejissorlar, istərsə də rəssam və bəstəkarlar onunla ədəbiyyat və teatrla bağlı müzakirələr apararkən Heydər Əliyevin mahir sənət bilicisi kimi sənətkarlıq məsələlərini dərindən bildiyini dəfələrlə etiraf etmişlər.

1964-1969-cu illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədr müavini və sədri vəzifələrində çalışarkən də Heydər Əliyev ədəbiyyat və incəsənət xadimlərimizə böyük qayğı ilə yanaşır, yaradıcılığında milli məsələlərə, ana dili probleminə və xalqın mənəviyyatına sahib çıxmağa çağırış edən söz sənəti ustalarını təqiblərdən, həbslərdən, sürgünlərdən qoruyur, onları bacardığı qədər himayə edirdi.

1962-ci ildə siyasi təqiblərə məruz qalan, "millətçi" damğası vurularaq işdən qovulan istiqlal şairimiz Bəxtiyar Vahabzadəyə sahib çıxan, Azərbaycanda ali siyasi rəhbərliyə gəldikdən sonra ona ən yüksək mükafatları qazandırıb, Xalq şairi fəxri adını (1984) verdirən də Heydər Əliyev oldu.

Görkəmli ictimai-siyasi xadim Fəttah Heydərov (1938-2022) "Ədəbiyyatın yüksək borcu və amalı" kitabına yazdığı "Heydər Əliyev irsi milli sərvətimizdir" başlıqlı ön sözdə yazırdı: *"70-ci illərdə respublikamızda milli tərbiyənin bütün sahələrinə mühüm diqqət yetirilirdi. Ədəbiyyat isə, təbii ki, ən öncül mövqedə dayanırdı. Həmin dövrdə Azərbaycan ədəbiyyatı klassiklərinin yubileylərinin necə ehtişamla qeyd edildiyi, demək olar ki, bütün klassikanın yenidən çap olunduğu, gənc yazıçılardan tutmuş qocaman sənət adamlarına kimi yaradıcılıq sferası nümayəndələrinə necə böyük qayğı və diqqət yetirildiyi hamının yadındadır"*[2, s. 6].

Onun milli ədəbiyyatımıza qayğısı ilk növbədə klassik irsimizə verdiyi dəyərdə, qüdrətli şair və yazıçılarımızın irsinin nəinki Azərbaycanda, keçmiş SSRİ və ümumdünya miqyasında təbliğində özünü biruzə veirirdi. 1972-ci ildə onun qətiyyəti sayəsində Azərbaycan ədəbiyyatında dram və roman janrlarının ilk nümunələrini yaradan böyük ictimai-siyasi xadim Nəriman Nərimanovun Bakının ən uca yerlərindən birində əzəmətli heykəlinin ucaldılması, 1972-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi haqqında Mərkəzi Komitədə qərarın qəbul edilməsi, 1973-cü ildə onun təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 600 illik yubileyinin keçirilməsinin ən mötəbər beynəlxalq təşkilatda – YUNESKO-nun gündəliyinə salınması, 1974-cü ildə məhz onun bilavasitə nəzarəti altında Azərbaycanda şair və yazıçılarımızın ev-xatirə muzeylərinin yaradılmasına start verilməsi və ilk olaraq Azərbaycanın ilk Xalq şairi Səməd Vurğunun Ev Muzeyinin 1975-ci ildə fəaliyyətə başlaması, 1979-cu ildə Mərkəzi Kommitədə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin əsərlərinin tədqiqi, təbliği və nəşri haqqında xüsusi qərarın qəbul edilməsi, 1981-ci ildə 840 illik yubileyinin ümumittifaq səviyyəsində qeyd olunmasına nail olması, 1982-ci ildə milli romantik poeziyamızın banisi Molla Pənah Vaqifin məqbərəsinin Şuşada açılışı, elə həmin ildə 37-ci illərin amansız repressiyasının qurbanı olmuş, dahi şair və dramaturq Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Vətənə gətirilməsi və Naxçıvanda dəfni, Bakıda Azərbaycan sovet

dramaturgiyasının banisi Cəfər Cabbarlının sal qranit qayadan yonulmuş abidəsinin ucaldılması və açılışı bu uzun siyahının yalnız kiçik bir hissəsidir.

Tarix elmləri doktoru Tahirə Həsənzadə "Ulu öndər Heydər Əliyev Azərbaycanda xatirə-ev muzeylərinin yaradıcısıdır" adlı məqaləsində diqqəti Ümummili liderin təşəbbüsü ilə Azərbaycanın dövlət və hökumət orqanlarında çıxarılan müvafiq qərarlara çəkərək: *"Xatirə muzeyləri Azərbaycan SSR KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1976-cı il iyun tarixli "Dahi ədəbiyyat və incəsənət xadimlərinin adını əbədiləşdirmək haqqında" qərarı və Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1979-cu il oktyabr tarixli qərarına əsasən, yaradılmağa başlamışdır",* – yazır[4, s. 55].

Ulu öndərin 1972-ci ildə Nəriman Nərimanovun anadan olmasının 100 illik yubiley mərasimində məruzəsi, 1976-cı ildə Azərbaycan yazıçılarının VI qurultayındakı, 1980-ci ildə Azərbaycan mədəniyyət xadimlərinə mükafatların təqdimindəki, 1981-ci ildə Azərbaycan yazıçılarının VIIqurultayındakı nitqləri, həmin ildə "Literaturnaya qazeta"ya verdiyi "Qoy ədalət zəfər çalsın ..." başlığı altında dərc olunmuş müsahibəsi, 1982-ci ildə Cəfər Cabbarlının abidəsinin açılışındakı nitqi, 1993-cü ildə Xalq şairi Məmməd Araza 60 illiyi, 1994-cü ildə Xalq yazıçısı İlyas Əfəndiyevə 80 illiyi, İsmayıl Şıxlıya 75 illiyi münasibətilə göndərdiyi məktublar, 1994-cü ildə Xalq şairi Xəlil Rza Ulutürklə vida mərasimindəki, Cəlil Məmmədquluzadənin 125 illik yubiley mərasimindəki, 1998-ci ildə Xalq şairi Mirvarid Dilbazinin 85 illiyinə həsr olunmuş gecədəki çıxışları və s. onun ədəbiyyat tariximizə necə dərindən bələd olduğunun bariz göstəricilərindən, sadəcə, bir qismidir.

Onu da qeyd etməliyik ki, Ulu öndər 1971-ci ildən mütəmadi olaraq Azərbaycan Yazçılar İttifaqının (sonralar Azərbaycan Yazıçılar Birliyi) bütün qurultaylarında iştirak etmiş, çıxış edərək ədəbiyyat xadimlərimizə öz qiymətli tövsiyələrini vermişdir.

Məhz Ümummili liderin sayəsində görkəmli Azərbaycan yazıçı və şairləri ən yüksək fəxri adlara layiq görülmüşlər: 1975-ci ildə Xalq yazıçısı Süleyman Rəhimov, 1976-cı ildə Xalq şairi Süleyman Rüstəm, 1980-ci ildə Xalq şairi Rəsul Rza, 1981-ci ildə Xalq yazıçısı Mirzə İbrahimov Sosialost Əməyi Qəhrəmanı fəxri adınalayiq görülmüşlər, Xalq yazıçısı İlyas Əfəndiyev 1972-ci ildə Azərbaycan SSR Dövlət mükafatı, Xalq şairi Bəxtiyar Vahabzadə 1976-cı ildə Azərbaycan SSR Dövlət Mükafatı, 1984-cü ildə SSRİ Dövlət Mükafatı laureatı oldular. Bu siyahını uzatmaq da olar.

Ulu öndərin1981-ci ildə bir qrup şairə Azərbaycan SSR Xalq şairi fəxri adını təqdim etdiyi zaman bu siyahıya Balaş Azəroğlunun adını da daxil etməsi bu müdrik şəxsiyyətin milli birlik idealına inancının bir göstəricisi idi. Təltifolunma mərasimində Ümummilli liderin B.Azəroğlu haqqında dediyi sözlər əslində Azərbaycanın şimal və cənubunda vahid ədəbi prosesin getdiyini siyasi cəhətdən əsaslandırırdı. Yəni Cənubi Azərbaycan poeziyasına qayğı da Heydər Əliyevin milli mədəniyyət siyasətinin tərkib hissəsi idi. Ulu öndər deyirdi: *"35 ildir ki, Balaş Azəroğlu Sovet Azərbaycanında yaşayıb yaradır. Şairin yeni əsərlərində də biz çox zaman Cənubi Azərbaycan mövzusuna rast gəlirik. Bu əsərlər onun çoxmilyonlu xalqının arzu*

*və istəklərini əks etdirir. Balaş Azəroğlunun yaradıcılığının əhəmiyyətli cəhətlərindən biri də istər bizdə, istərsə də Cənubi Azərbaycanda müasir ədəbiyyatın inkişafına səmərəli təsir göstərməsindən ibarətdir"* [2, s. 164].

1993-cü ildə xalqın təkidli tələbindən sonra, yenidən öz müstəqilliyinə qovuşan Azərbaycan dövlətinin ən ağır anlarında Respublikada ali siyasi hakimiyyətə qayıdışından sonra da Ulu öndər ədəbiyyatımızın hamisi və ən əsas təbliğatçısı missiyasını öz üzərinə götürdü. Ümummili lider 1994-cü ilin 16 martında "Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında" fərman, 1999-cu il23 fevralında "Cəfər Cabbarlının 100 illik yubileyinin keçirilməsi haqqında", 2002-ci ilin 23 oktyabrında "Hüseyn Cavidin 120 illik yubileyi haqqında" sərəncamlar imzaladı. Bu sərəncamlar sırasında ən yadda qalanlarından biri isə 2000-ci ilin 7 fevral tarixində imzalanan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsinin keçirilməsi haqqında" sənəd idi. Məhz həmin sərəncamda 2000-ci il 9 aprelində Bakıda Türkdilli dövlətlərin VI Zirvə toplantısına gəlmiş dövlət başçılarının iştirakı ilə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli gecənin keçirilməsi qərara alınmışdı.

Heydər Əliyev şair və yazıçılarımızın xatirəsinin əbədiləşdirilməsi istiqamətində sovet dövründə başladığı işi müstəqillik illərində də davam etdirirdi. Elə 1996-cı ildə onun göstərişi ilə Hüseyn Cavidin məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması və özünün iştirakı ilə həmin ilin 29 oktyabrında böyük ehtiramla açılışı da bu möhtəşəm missiyanın davamı idi.

Heydər Əliyev Azərbaycan ədəbiyyat xadimlərinin, xüsusən də klassiklərimizin gənc nəslə daha yaxından tanıdılması və sevdirilməsi, eyni zamanda dünya ictimaiyyətində onların irsinə maraq oyadılması işində kinonun rolunu həmişə önə çəkir, xüsusən də bədii filmlərin müstəsna əhəmiyyətini qabardırdı. Görkəmli kino xadimlərimiz də təsdiq edir ki, 1969-cu ildə Ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonra milli kinomuzda yeni bir istiqamət yarandı. Bu da tarixi mövzuya müraciətin intensivliyi ilə, xüsusən də klassiklərimizin həyatı fonunda milli tariximizin ekranlaşdırılmış versiyada təqdimi ilə bağlı idi. Ən yaddaqalan Azərbaycan filmlərindən "Nəsimi" (1973), "Dədə Qorqud" (1979), "Nizami" (1982) kimi kino əsərləri məhz Heydər Əliyevin bilavasitə dəstəyi ilə ərsəyə gəlmiş və onun sayəsində böyük ekrana yol tapmışdı.Görkəmli yazıçılar Həsən Seyidbəyli, Anar, İsa Hüseynov da məhz bu filmlər sayəsində daha geniş kütlənin sevimlisinə çevrilmiş, kino xadimləri kimi də xalqın rəğbətini qazanmış, Anar və İ.Hüseynov Azərbaycan SSR əməkdar incəsənət xadimi, H.Seyidbəyli Azərbaycan SSR xalq artisti fəxri adına layiq görülmüşlər.

Dramaturgiya sayəsində xüsusi xidmətləri olan yazıçılarımız da Ulu öndərin diqqətindən kənar qalmırdı. Tarixi şəxsiyyət və ədəbiyyat xadimlərinə pyeslər həsr edən görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyev 1971-1979-cu illərdə dəfələrlə dövlət təltiflərinə layiq görülmüş, dramaturqun "Mahnı dağlarda qaldı" pyesi 1972-ci ildə Azərbaycanın Dövlətmükafatı almış, o, 1979-cu ildə Azərbaycan SSR Xalq yazıçısı fəxri adını almışdı. Heydər Əliyev bu ənənəyə müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dönəmdə də sadiq qalmış, 2001-ci ilin 9 martında "İlyas Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi haqqında"

xüsusi sərəncam imzalamış, Bakı şəhərindəki küçələrindən birinə dramaturqun adının verilməsi və yaşadığı binanın divarına xatirə lövhəsinin vurulması göstərişini vermişdir.

Onun Azərbaycan teatrının yaradıcılarının xatirəsinə dərin ehtiramla yanaşmasının bir bariz nümunəsi də Bakıda 2000-ci ildə baş vermiş zəlzələdə ciddi zərər görmüş dahi şair Hüseyn Cavidin Ev Muzeyinin təmir-bərpa prosesindən sonra 2002-ci ilin 24 oktyabrında ədibin 120 illik yubileyi günündə açılış mərasimində şəxsən iştirak etməsidir.

Akademik Bəkir Nəbiyev "Heydər Əliyev haqqında etüdlər" adlı məqaləsində Ulu öndərin ədəbiyyata məhəbbətindən doğan ədəbiyyat xadimlərinə qayğısını onun mədəniyyət siyasətinin mühüm tərkib hissəsi kimi belə xarakterizə edirdi: *"Heydər Əliyev, ümumiyyətlə, şeirə, sənətə, musiqiyə qarşı, özünün də etiraf etdiyi kimi, "çox hissiyyatlı bir adam idi". İçdən gələn və uzun on illərin təcrübəsi ilə zənginləşən bu keyfiyyət Azərbaycan ədəbiyyatı xadimlərinin xalq və dövlətçilik qarşısında xüsusilə böyük xidmətlərinin layiqincə qiymətləndirilməsi işində ümummilli liderimizə yaxşı kömək edirdi. H.Əliyev öz zəngin təcrübəsi, yüksək intellekti, xalqın mənəviyyat xəzinəsinə məhəbbəti və qayğısı sayəsində Azərbaycan dilinin, ədəbiyyatının və incəsənətinin inkişaf perspektivlərinə dair uzunmüddətli siyasət işləyib hazırlamış və hər cür müqavimətə, mürəkkəbliklərə baxmayaraq, onu ardıcıllıqla həyata keçirmişdir"* [3, s. 53].

Beləliklə, yekun olaraq onu söyləyə bilərik ki, xalqımızın qədim ənənələrə malik klassik ədəbiyyatının müsbət təsiri altında yetişən Ulu öndər hər zaman söz sənətimizə böyük qayğı və ehtiramla yanaşmışdır. O istər sovet dönəmində, istərsə də müstəqillik illərində şimallı-cənublu Azərbaycan ədəbiyyatının təbliği işində öncüllərdən olmuşdur. Gözəl ədəbiyyat bilicisi olan Ümummilli lider ədiblərin xatirələrinin əbədiləşdirilməsi, çağdaşı olan şair və yazıçıların zəhmətinin qiymətləndirilməsi, məişət şəraitlərinin yaxşılaşdırılması, klassiklərimizin irsinin tədqiqi, nəşri və geniş sferada təbliği sahəsində mühüm işlər görmüşdür. Ədəbiyyat və incəsənət xadimləri ilə görüşlərində milli mədəniyyətimizin daha da inkişafı üçün daim öz tövsiyələrini vermiş, dövlət orqanlarının və hökumət nümayəndələrinin qayğı və diqqətini bu sahəyə yönəltməsinin vacibliyini vurğulamış, bunun gənc nəslin milli-vətənpərvər ruhda tərbiyəsi üçün əhəmiyyətli olduğunu nəzərə çatdırmışdır. Ulu öndər Heydər Əliyevin bu gün bizə miras qalan ədəbiyyat, teatr və kino sənəti ilə bağlı sərəncam, fərman, məruzə, çıxış, məktub və müsahibələri onun milli ədəbiyyatımızın böyük hamisi olduğunu söyləməyimizə əsas verir.

**Ədəbiyyat**

1. Əlişanoğlu T., Heydər Əliyevin ədəbiyyat sevgisi: təşəkkül və özünüifadə, Ədəbiyyat qəzeti, 11 may, 2019, s. 4-5.
2. Əliyev Heydər. Ədəbiyyatın yüksək borcu və amalı, tərtibçi: Vilayət Quliyev, Bakı: Ozan, 1999, 496 s.

3. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı, elmi redaktor: Bəkir Nəbiyev, Bakı: Şərq-Qərb, 2009, 248 s.
4. Heydər Əliyevin mədəniyyət siyasəti: Şuşadan Lənkərana, respublika elmi-nəzəri konfransının materialları, məsul katib Reyhanə Sadıxova, Bakı: Elm və təhsil, 2023, 116s.